## "AVRASİYA ƏFSANƏSİ" NƏDİR ?

Avrasiya Akademiyası üzvlərinə və birinci növbədə onun beş təsisçisinə təqdim olunmaq üçün nəzərdə tutulan, böyük zövqlə hazırlanmış mükafatın – kubokun simvolik adıdır. Təsisçi H. İsaxanlının şərtləri və tövsiyəsi əsasında tanınmış rəssam, xalça ustası Afaq Kərimovanın layihəsi əsasında Şanxayda hazırlanmış kubok bilik, mədəniyyət, elm, müdriklik təmsil edən milli və müasir atributları birləşdirir. Kubok iki hissədən-



şəffaf büllur dekorativ vaza və yuxarıda sadalanan atributları əks etdirən qızılı metal başlıqdan ibarətdir. Hündürlüyü -38 sm, diametri - 8 və 12 sm olan kubokun metal hissəsi vazanın üzərini örtən təsviri sənət rəmzi kimi palitraya sıxılmış boyaları xatırladan müxtəlif rəngli daşlarla bəzədilib.

Onun üzərində elm və təhsilin atributu kimi varaqları açılmış qanadlı kitab, musiqi aləminin simvolu kimi cəng-lira təsvir edilib. Elementlərin hər birində bəzən stilizə olunmuş milli ornamentlər işlənib. Qum saatı formasında hazırlanmış vazanın daxilində qızılı qum süzülür. Qum saatı funksiyasını daşıyan kubokun üzərində cızılmış butaların çərxi istiqamətdə gəlimli - gedimli olması və yenidən təkrarlanması əbədiyyətin rəmzi mənası kimi işlənib.

# "AVRASİYA ƏFSANƏSİ" AMERİKADA

***2015-ci il noyabr aynın ilk günlərində** Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı və onun rəhbərliyi altında çəkiliş qrupu ABŞ-ın Kaliforniya ştatına səfər etdi. Səfərin məqsədi Berkli şəhərində yaşayan məşhur elm adamı, əslən azərbaycanlı olan **Lütfi Zadəyə** təsisçiləri arasında olduğu Avrasiya Akademiyasının üzvlük mükafatını – **"Avrasiya Əfsanəsi"ni** və uyğun diplomu təqdim etmək idi.*

Kaliforniya Berkli Universitetinin (University of California at Berkeley) professoru Lütfəli Rəhim oğlu Əsgərzadə (1921) Azərbaycanda yaxşı tanınır, Amerikadakı Azərbaycan diaspor təşkilatlarının da fəxri sədridir. O, süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, bir çox xarici ölkə akademiyalarının üzvüdür. Lütfi Zadə çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülüb, medallarla təltif edilib. Onlarla xarici dövlətin təhsil və elm müəssisələrinin fəxri doktorudur. Kaliforniyanın Berkli şəhərində **"İnformasiya Texnologiyaları üzrə Zadə İnstitutu"** yaradılıb.



Əslində, Lütfi Zadə, digər təsisçilər kimi, Avrasiya Akademiyasının üzvlərinə veriləcək **"Avrasiya Əfsanəsi"** adlı gözəl kubok-mükafatı almaq üçün Bakıya dəvət edilmişdi. Ancaq yaşı və səhhətinə görə təyyarə ilə uzaq məsafəyə səyahət etməsi mümkün olmadığından Lütfi Zadə professor Hamlet İsaxanlını Amerikaya dəvət etdi. Dəvəti məmnuniyyətlə qəbul edən qarşı tərəf vaxt itirmədən okeanın o biri tayına yollandı. Noyabrın 5-də Lütfi Zadə qonaqları öz evində qarşıladı.



Görüş çox səmimi keçdi. Demək olar, bütün ömrünü Amerikada keçirməsinə baxmayaraq, ev sahibi qonaqlarına Azərbaycan ənənələrinə uyğun olaraq çay süfrəsi açdı. Söhbətə başlayan H. İsaxanlı dəvət üçün təşəkkür etdikdən sonra elm və mədəniyyətin inkişafı naminə yaradılmış Avrasiya Akademiyasına verdiyi dəstəyin önəmini ifadə edərək, akademiyanın **"Avrasiya Əfsanəsi"** kubokunu və diplomunu **Lütfi Zadəyə** təqdim etdi. Diqqətə görə minnətdarlığını bildirən akademik bu ideyanı çox bəyəndiyini və qurumun inkişaf edərək, fəaliyyət sahəsinin genişlənməsini təmənna etdiyini söylədi.





Söhbət zamanı ev sahibi Amerikada erməni lobbisinin çox güclü olduğunu, Qarabağ probleminin həll olunmamasına üzüldüyünü bildirdi. Sonda Lütfi Zadə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dəvəti ilə 2011-ci ildə Azərbaycana gəldiyini, Bakının inkişaf etmiş gözəl bir şəhər olduğunu xatırlayaraq, həmyerlilərimizə səmimi salam göndərdi:"Bakıya salam, sevgi və sayğımı çatdırın".

Beləcə, birinci "Avrasiya əfsanəsi" ilk olaraq Amerikadakı sahibinə qovuşdu.




“Bakıya salam, sevgi və sayğımı çatdırın"

# KUBOK KİMLƏRƏ VERİLƏCƏK ?



“Avrasiya Əfsanəsi” kuboku






Üzeyir Hacıbəyli adına medal

Avrasiya Akademiyası yaradılması ideyası 2012-ci ildən etibarən barəsində aparılan çoxlu müzakirə və məsləhətləşmələr nəticəsində meydana gəldi. Təsisçilərin tərkibi haqqında yekun qərar qəbul edildi.

**Lütfi Zadə** ilə yanaşı **Osmanlı İmperiyası tarixinin əsas tədqiqatçıarından biri olan Halil İnalcık**, çox tanınmış **neyrocərrah Mahmut Gazi Yaşargil**, **Azərbaycan Respublikasının xalq artisti bəstəkar Arif Məlikov**, **Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı** təsisçilərdir.

Avrasiya Akademiyası görkəmli elm və sənət adamlarının, mütəxəssislərin və intellektualların, yaradıcı sənətkarların birliyidir, qeyri-siyasi və gəlir güdməyən cəmiyyətdir. Avrasiya Akademiyasının məqsədi elm, sənət və insan inkişafına xidmət edən sahələrdə tədqiqat və yaradı-cılıq işlərinin aparılmasına kömək etmək, mövcud vəziyyəti təhlil etmək, hesabatlar hazırlamaq və dəyərləndirmələr aparıb ictimaiyyətə təqdim etməkdən ibarətdir. Avrasiya Akademiyası təbiət elmləri və texnologiya; humanitar və sosial elmlər; ədəbiyyat, incəsənət və musiqi kimi sahələri əhatə edir. Avrasiya Akademiyasına üzv seçilmək elm və sənət adamlarının qazanacağı yüksək şərəfdir. Ciddi elmi kəşflər etmiş, yüksək sənət əsərləri yaratmış, mütəxəssis kimi böyük uğurlar qazanmış insanlar Avrasiya Akademiyasının üzvü seçilə bilərlər. Üzvlər məhdud sayda olacaq. Təsisçilər arasında aparılan uzun müzakirələr üzvlərin sayının 30 ətrafında olacağından xəbər verir. Yəni, eyni zamanda ancaq 30 ətrafında üzv seçiləcək, yeni üzvlər dünyasını dəyişən üzvlərin yerinə seçiləcək. Fransız Akademiyasına bənzədilsə (onun eyni zamanda 40 üzvü olur), Avrasiya Akademiyasına seçilənləri “ölməzlər” və ya “Avrasiya ölməzləri” adlandırmaq olar.

Avrasiya Akademiyası öz xüsusi mükafatlarını və medallarını təsis edib, layiq hesab etdiyi şəxsləri və qurumları təltif edir. 2014 - 2015 - ci illərdə akademiyanın mükafat və medallarının hərtərəfli planları dəqiqləşdikdən sonra 2015-ci ildə bütün atributlar müəyyənləşdi.

Aşağıdakı medallar hazırlandı:
**Üzeyir Hacıbəyli adına medal** elm, incəsənət, musiqi, mədəniyyət sahəsində xüsusi müvəffəqiyyətlər qazanmış və Avrasiya Akademiyası Şurası tərəfindən bəyənilmiş elm, musiqi, incəsənət xadimlərinə verilir.
**Nəsirəddin Tusi adına medal** dəqiq və tətbiqi elmlər, mədəniyyət sahələrində, **Mirzə Fətəli Axundzadə adına medal** ədəbiyyat, teatr, kino sahələrində, **İbn Sina adına medal** fəlsəfə, təbiət elmləri, tibb sahələrində, **İbn Xəldun adına medal** isə tarix və humanitar elmləri sahələrində böyük müvəffəqiyyətlər qazanmış görkəmli şəxslərə verilir.

Avrasiya Akademiyası müəyyən sayda üzvlərdən ibarət Şura tərəfindən idarə olunur. Şuranın qərarları Akademiyanın nizamnaməsinə uyğun olaraq seçilən Prezident və vitse-prezidentlər tərəfindən xüsusi komitələr vasitəsilə həyata keçirilir. Akademiyanın nizamnaməsi qurucu üzvlər tərəfindən hazırlanıb, təsdiq edilir.

2012-ci ildən aparılan məsləhətləşmələr və hazırlıq işlərinin nəticəsi olaraq 2015-ci ildə Avrasiya Akademiyası tam fəaliyyətə başladı. Avrasiya Akademiyasının rəsmi açılış mərasimi 2016-cı il yanvarın sonunda keçiriləcək.





Nəsirəddin Tusi
adına medal



Mirzə Fətəli Axundzadə
adına medal



İbn Sina
adına medal



İbn Xəldun
adına medal



# EURASIAN LEGEND IN AMERICA

In early November 2015, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made a trip to California (USA) along with a film crew. The goal of the trip was to visit Professor Lotfi Zadeh, a well-known scholar of Azerbaijani origin living in Berkeley, and present to him the Eurasian Legend award which is given to the founding members of the Eurasian Academy along with its accompanying certificate.

***Lotfi Zadeh (whose real name is Lutfeli Rehim oghlu Esgerzade, b.1921), a professor at University of California, Berkeley, is well known in Azerbaijan. He is an honorary chairman of the Azerbaijani diaspora in America. He is the father of the theory of fuzzy logic in the field of artificial intelligence and is a member of the Academies of many foreign countries. He has received many awards and medals from respected societies and foundations. He is an honorary doctor of dozens of foreign countries and public organizations. He founded the Zadeh Institute for Information Technologies at UC Berkeley.***

Actually, Lotfi Zadeh was invited to Baku to receive the Eurasian Legend award given to the founding members of Eurasian Academy, but he was unable to make the long journey because of his age and for health reasons, so he invited Professor Hamlet Isaxanli to America instead. Accepting the invitation with pleasure, Prof. Isaxanli soon set out for California. Lotfi Zadeh met with the guests in his home on November 5th.





# "PASS ALONG MY GREETINGS AND LOVE TO BAKU"

The meeting was very sincere. Despite the fact that Prof. Zadeh has spent most of his life in America, he provided a traditional Azerbaijani-style tea for the guests. Prof. Isaxanli started the conversation by thanking Prof. Zadeh for the invitation. Then, expressing the importance of supporting the Eurasian Academy, which was established for the development of sciences and arts, he presented the Eurasian Legend trophy and certificate to Prof. Zadeh. The Professor expressed his gratitude and said that he really liked the idea of the Academy and expected that it would increase its sphere of operations as it grew. During their conversation, the host mentioned the strength of the Armenian lobby in the USA and that he was very sorry the Karabakh problem has not yet been solved. Then Lotfi Zadeh said he had visited Azerbaijan in 2011 upon the invitation of Ilham Aliyev, President of the Azerbaijan Republic. He shared fond memories of the beautiful, developed city of Baku, and he sent his warm greetings, saying "pass along my greetings and love to Baku." Thus, the first Eurasian Legend award was united with its rightful owner in America.

## WHAT IS THE EURASIAN LEGEND?

The Eurasian Legend is the symbolic name of an award in the form of a trophy that was custom-made to be given to the members of Eurasian Academy, starting with its five founders. It was prepared in Shanghai based on the plans of well-known textile artist Afag Karimova, who designed the trophy according to the recommendations of founder Hamlet Isaxanli. The trophy includes symbols of knowledge, culture, science, and wisdom as well as modern attributes. It consists of two sections: a clear crystal decorative vase and a gold-colored metal topper reflecting numerous symbols.



It is shaped symmetrically with a height of 38 cm, a width (diameter) of 8 cm in the vase and 12 cm at the top. The topper is shaped like an artist's palette, on top of which semi-precious stones of different colors have been affixed in order to represent squeezed-out oil paints as a symbol of fine arts. On top, it includes symbols of science and education such as an opened, winged book and a harp-like stringed musical instrument. Each element is made of stylized national symbols. The inside of the vase is a functional hourglass. There are "buta" (teardrop/paisley) figures on the upper and lower parts of the crystal vase to represent the temporal nature and repetition of eternity.

# WHO WILL THE TROPHY BE GIVEN TO?



Eurasian Legend trophy






Uzeyir Hajibeyli Medal

The idea to establish Eurasian Academy was the result of discussions and consultations starting in 2012. A final decision was made about who would be included in the list of founding members.

Besdies **Lotfi Zadeh**, **they include Halil Inalcik**, one of the top scholars of **Ottoman Empire history**; **famous neurosurgeon Mahmut Gazi Yasargil**; **Arif Melikov, composer and People's Artist of the Azerbaijan Rebublic**; and **Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees**.

Eurasian Academy is a non-political and non-profit society for distinguished scholars, artists, specialists and intellectuals. The vision of Eurasian Academy is to provide assistance for research and creative works in academic and artistic fields as well as those serving human development; to analyze the current situation in these fields; and to present reports and evaluations to the public. Eurasian Academy comprises fields such as science and technology; humanities and social sciences; literature, fine arts and music.

It is a great honor for a scholar or artist to earn membership into Eurasian Academy. Those who have made significant scientific discoveries, created momentous works of art, or accomplished noteworthy successes as specialists in their fields may be elected to membership in Eurasian Academy. The number of members will be limited. After long discussions among the founding members, a decision was made to limit the membership to 30 individuals. This means that 30 people can be members of the Academy at any given time, and deceased members' positions will be given to new members. This system is similar to the French Academy (which can have 40 members at a time); however, the members of Eurasian Academy are referred to as "immortals" or "the undying Eurasians."

Eurasian Academy establishes its own special awards and medals and bestows them upon the individuals and organizations it deems worthy of such honors. After planning out the medals and awards in 2014-2015, final decisions were made and medals were prepared in 2015.

The following medals were produced:

The **Uzeyir Hajibeyli Medal** is awarded to scholars, musicians, and artists selected by the Eurasia Academy board who have made significant achievements in the fields of academics, the arts, music, or culture. The **Nasiraddin Tusi Medal** is for the fields of applied science or culture; **Mirza Fatali Akhundov Medal** for the fields of literature, theater and film; **Ibn Sina Medal** for philosophy, life sciences and medicine; and **Ibn Khaldun Medal** for history and social sciences.

Eurasian Academy is managed by a board consisting of a determined number of members. The decisions of the board are implemented by the President and Vice Presidents, who are elected according to Academy bylaws, by means of special committees. The Academy bylaws are prepared and ratified by the Founding Members. As a result of consultations since the year 2012, the Eurasian Academy fully began operation in 2015. The official opening ceremony of Eurasian Academy will be held at the end of January 2016.



**"PASS ALONG MY GREETINGS AND LOVE TO BAKU"**




Nasiraddin Tusi Medal




Mirza Fatali Akhundov Medal




Ibn Sina Medal




Ibn Khaldun Medal